

# Günay ƏFƏNDİYEVA

*Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti*

***Azərbaycan Respublikasının Milli Məclisinin üzvü, yazıçı-publisist Aqil Abbasa***

Hörmətli Aqil müəllim!

Sizi - Azərbaycanın görkəmli yazıçısını 70 illik yubileyiniz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Siz müasir Azərbaycan mətbuatının və ədəbiyyatın inkişafına sanballı töhfələr vermiş yazıçı-publisistsiniz. Təsis etdiyiniz "Ədalət" qəzeti bu gün də öz müstəqil, qərəzsiz və dövlətçilik əqidəsinə uyğun coşqun fəaliyyətini davam etdirir. Müstəqil mətbuatın ilk qaranquşlarından olan bu qəzetin türkçülük, vətənpərvərlik, dövlətçilik xəttini özünə rəhbər seçməsi Sizin özünüzün həyat və yaradıcılıq amalınızın parlaq göstəricisidir.

Siz Qarabağa erməni təcavüzünün ilk illərindən etibarən daim cəbhə bölgələrində, döyüşlərin qaynar nöqtələrində olaraq yüksək vətəndaşlıq nümunəsi göstərmiş, millət vəkili olduğunuz dönəmdə Qarabağ probleminin həllinə eyni həssaslıqla yanaşmışınız. 44 günlük tarixi Zəfər günlərində Sizin vətəndaş qayələri ilə nəfəs alan publisistikanız oxucularınıza mənəvi dayaq olmuşdur.

Təsadüfü deyil ki, Qarabağ hadisələri Sizin əsas ədəbi mövzularınızdan biridir. Şahidi olduğunuz hadisələr, gördüyünüz müharibə dəhşətlərinin əks edildiyi roman və hekayələriniz oxucular tərəfindən daim rəğbətlə qarşılanmış, yaxın keçmişimizlə bağlı ədəbi-tarixi salnamələrə çevrilmişdir. "Dolu" romanınız əsasında çəkilən eyni adlı film gənclərin düşüncəsində dərin iz buraxmış, onlarda vətənpərvərlik duyğuları aşılamışdır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu Sizin ictimai-siyasi fəaliyyətinizi və Azərbaycanın mədəni həyatındakı xidmətlərinizi həmişə yüksək qiymətləndirmişdir.

70 illik yubileyiniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, cansağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

Hörmətlə...

*31 mart, 2023*

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 1 aprel.- S. 9